AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

DEKABR 2024-cü il CÜMƏ AXŞAMI № 268 (8026) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ




# Azərbaycanın "yaşıl enerji" hədəfləri

## *Ölkəmizin icra etdiyi meqalayihələr hələ başlanğıc hesab olunur*

*"Yaşıl enerji"yə keçid Azərbaycanda enerji siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkənin "yaşıl enerji" mənbələrindən əldə edilən enerjinin payının getdikcə artırılmasına nail olmaq aparılan islahatların əsas məqsədidir. Ölkəmiz 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq və enerji istehsalında bərpaolunan mənbələrin payını 2030-cu ilə qədər 30 faizə çatdırmaq kimi mühüm məqsədlər müəyyən edib. Ona çatmaq üçün günəş, külək və bioenerji kimi mənbələrin istifadəsi artırılır. Xüsusilə, azad edilmiş ərazilərdə böyük "yaşıl enerji" layihələri reallaşdırılır. Enerji infrastrukturunda modernizasiya tədbirləri həyata keçirilir və bərpaolunan enerji istehsalı üçün yeni texnologiyalar tətbiq olunur.*

Azərbaycan "yaşıl enerji" sahəsində beynəlxalq təşkilatlar, müxtəlif ölkələr və sərmayədarlarla fəal əməkdaşlıq edir. COP29-da Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında üçtərəfli görüşdə "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında mühüm saziş imzalanıb. Prezidentlərin imzaladığı "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" regionun enerji transformasiyası və iqlim dəyişmələri ilə mübarizə istiqamətində mühüm addım oldu. Həmçinin Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səud tərəfindən "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası və Səudiyyə Ərəbistanı Krallığının energetika nazirlikləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində İcra Proqramı" imzalanıb. Azərbaycanın Gürcüstan, Bolqarıstan, Rumınıya və Macarıstanla Qara Dəniz vasitəsilə Avropaya "yaşıl enerji" ixracı layihəsi bu kontekstdə strateji əhəmiyyət daşıyır. Hər iki layihə Avropanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanın beynəlxalq enerji bazarlarında rolunu daha da möhkəmləndirəcək. Mərkəzi Asiya və Qafqaz ölkələri arasında iqtisadi və ekoloji əməkdaşlıq perspektivlərini genişləndirən saziş bərpaolunan enerjinin inteqrasiyası ilə yanaşı, Azərbaycana enerji ixracını genişləndirməyə imkan yaradacaq. Bu addım regionun nəqliyyat və logistika sektorlarında inteqrasiyanı gücləndirərək həm iqtisadi, həm də ekoloji təsirləri artıracaq.

Hər üç lider bərpaolunan enerji sahəsində əlaqələrin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Prezident İlham Əliyev sazişi üç ölkə arasındakı münasibətlər üçün "tarixi hadisə" adlandırıb: *"Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan tarixində əlamətdar bir an yaşanır. Bu saziş əməkdaşlığımızı yeni səviyyəyə yüksəldərək, Mərkəzi Asiya və Qafqaz regionlarında yeni imkanlar açacaq"*. Azərbaycan Prezidenti Özbəkistan və Qazaxıstanın strateji tərəfdaşlığına və dəstəyinə yüksək qiymət verərək, hər iki ölkənin Qarabağın bərpasına verdiyi köməyi xüsusi vurğulayıb. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, öz növbəsində, "yaşıl enerji" sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi öhdəliklərini təsdiqləyiblər. Liderlər görüşü ortaq bir bəyanatla yekunlaşdıraraq, davamlı enerji layihələrinin irəlilədilməsi və regionun enerji infrastrukturunun inteqrasiyası üçün ortaq vizyonlarını ifadə ediblər. Bu yüksək səviyyəli görüş Xəzər və Mərkəzi Asiya regionlarında "yaşıl enerji" üzrə əməkdaşlığın artan əhəmiyyətini göstərməklə ölkələrin qlobal "yaşıl enerji" keçidində əsas aktor kimi mövqelərini gücləndirməyi hədəfləyir.

*"İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istəyərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti bir regionumuzda 230 meqavatlıq günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir"*. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində deyib və əlavə edib ki, 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır.

**(davamı 2-ci səhifədə)**

**Mina terroru işğaldan azad edilən torpaqlarımızda hələ də davam edən təhlükə, özü də keçmiş döyüş meydanlarından uzaqda, gizli və xaincəsinə aparılan bir müharibədir.**



## Regional problemdən qlobal...

terroru bu gün də dinc azərbaycanlıların həyatına müdaxilə edir, Qarabağ və ətraf ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini ləngidir, həm də insanların həyatına ölümcül təhdid yaradır.

**(davamı 10-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

# Azərbaycanın "yaşıl enerji" hədəfləri



Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Azərbaycanın enerji keçidinin regional xarakterli növbəti mərhələsi Xəzər dənizinin nəhəng enerji potensialının işlənməsinə və yeni enerji dəhlizlərinin qurulmasına əsaslanır. Bu, həm də ölkəmizin "yaşıl enerji" tədarükçüsünə transformasiyası deməkdir. İlkin mərhələdə 5 giqavat "yaşıl enerji"nin Avropa və Türkiyəyə ixracını təmin edəcək Xəzər-Qara dəniz-Avropa, Naxçıvan üzərindən Azərbaycan-Türkiyə-Avropa, həmçinin Mərkəzi Asiya-Azərbaycan-Avropa "yaşıl enerji" dəhlizləri regional əhəmiyyətli strateji layihələrdir. Buradan görünür ki, Azərbaycandan 3 dəhliz vasitəsilə Avropaya "yaşıl enerji" ixrac ediləcək.

## Ölkəmizin icra etdiyi meqalayihələr hələ başlanğıc hesab olunur

Xatırladaq ki, 2022-ci ilin dekabrında "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu ilin sentyabrın 3-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın sistem operatorları - "AzərEnerji", "Gürcüstan Dövlət Elektrosistem", "Transelectrica", MVM arasında Birgə Müəssisənin Buxarest şəhərində yaradılmasını nəzərdə tutan müqavilə imzalanıb. Kabel Azərbaycanda istehsal olunan "yaşıl elektrik" enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırmaq, daha sonra Macarıstana və Avropanın qalan hissəsinə nəql etmək üçün nəzərdə tutulub. İqtisadçı ekspertlər qeyd edir ki, Qara dəniz sualtı enerji kabeli layihəsinin həyata keçirilməsi üçün birgə müəssisənin yaradılması haqqında razılaşma Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələrində mühüm mərhələdir. Bu layihə Azərbaycanın geosiyasi arenada nüfuzunun tanınmasının bariz göstəricisidir. Təklif olunan sualtı kabel 1000 meqavat gücündə ən uzun kabel olacaq. Bu güc bir milyona yaxın Avropa evini enerji ilə təmin etmək üçün kifayətdir ki, bu da layihəni həmin qitədə əhəmiyyətli dərəcədə bərpaolunan enerji mənbəyinə çevirir. Layihənin həyata keçirilməsi enerji təhlükəsizliyinin artmasına, istixana qazları emissiyalarının azalmasına və regional əməkdaşlığın gücləndirilməsinə səbəb olacaq. Bundan əlavə, ekspertlərin fikrincə, bərpaolunan mənbələr əsasında elektrik enerjisinin ixracı COP29-un məqsədlərinə uyğundur.

Azərbaycan və Türkiyə vasitəsilə "yaşıl enerji" dəhlizinin böyük bir strateji layihə kimi reallaşdırılması üçün Cəbrayılda inşa olunmuş 330 kilovoltluq yarımstansiya və elektrik verilişi xətlərinin eynilə Naxçıvanda tikilməsi, bu enerji sistemlərinin inteqrasiyası, Türkiyə ilə sərhəddə çevirici yarımstansiyanın tikintisi qarşıda duran məsələlərdir. Həmçinin Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizi Mərkəzi Asiyadan elektrik enerjisinin Azərbaycan vasitəsilə ixracının daha bir potensial istiqaməti ola bilər. Belə ki, hazırda Qazaxıstan və Özbəkistandan "yaşıl enerji"nin Azərbaycandan keçməklə Xəzər-Qara dəniz-Avropa dəhlizi ilə Avropaya nəqli üzrə üçtərəfli əməkdaşlıq edilir. Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizinin reallaşması isə Mərkəzi Asiya ölkələrinin ixrac imkanlarını şaxələndirməklə yanaşı, türk dövlətlərinin "yaşıl enerji" əməkdaşlığına da töhfə vermiş olar. Mütəxəssislərin fikrincə, bərpaolunan mənbələr əsasında elektrik enerjisinin ixracı COP29-un məqsədlərinə uyğundur, ona görə də yaşıl Qarabağ və Şərqi Zəngəzur layihəsi ilə yanaşı, mühüm addımlardan biri sayıla bilər.

Bu baxımdan vurğulamaq lazımdır ki, dünyada "yaşıl enerji"dən istifadənin genişləndiyi bir vaxtda Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin qlobal əhəmiyyətli məsələlərdə təşəbbüskar dövlət olduğunun bütün dünyaya nümayiş etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Ətraf mühitin qorunması, meşə zolaqlarının və su ehtiyatlarının mühafizəsi, yaşıllıqların artırılması naminə təşəbbüslərin dəstəklənməsi, yeni layihələrin icrasını sürətləndirəcək. Bu konteksdə ölkəmizdə "yaşıl iqtisadiyyat" quruculuğu sahəsində də yeni prioritetlər müəyyən ediləcək, xarici investorlarla birgə layihələrin icrası artacaq.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Prezident sərəncamı iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Sərəncamda qeyd olunur ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Ümumiyyətlə, ölkəmizin bərpaolunan enerji potensialının 200 qiqavat olduğu dəyərləndirilib. Azərbaycan dövləti bu potensialın realizə olunması istiqamətində ciddi addımlar atır və yaxın gələcəkdə bərpaolunan enerjinin, yaşıl hidrogenin Qara dənizin dibi ilə Avropaya ixrac olunmasını həyata keçirəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**

